

*Xəliyəddin* Xəlilli

# QARABAĞ ATI

**"QARABAĞ ATI" - HAQQINDA BİLDİKLSSRİMDSSN VSS ARZULARIM-**

***Hörmətli oxucu, bu əsər mənim AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropalogiya İnstitutunda 44 günlük Qarabağ müharibəsinin şərəfinə yazılan "Qarabağın etnoqrafiyası" monoqrafiyasında "Qarabağın maldarlıq təsərrüfatı" fəslinin bir paraqrafıdır. Bu günlərdə mənə məlum oldu ki, əsəri nəşrə hazırlayan heyət Qarabağ atı haqqında sizə təqdim olunan bu əsər kitabdan çıxarılıb, onun əvəzinə indiyə qədər at haqqında bir dənə də olsun məqaləsi nəşr olunmamış şəxsin yazısı monoqrafiyaya daxil edilmişdir. Bunu çoxsaylı səbəblərlə izah etmək olar. Mənə görə başlıca səbəb bu adamların milli ruhdan və dəyərlərdən məhrumluğudur. Qarabağ atı yalnız Qarabağın, Azərbaycanın deyil, bütün türk dünyasının tarixi namus simvolu, hərbi ruhudur, "əri arzuya yetirənidir". Qarabağ atını sizə təqdim olunan əsərdən daha yüksək səviyyədə təqdim edəcək əsərin müəllifinin əlini sıxıb əsərini əsərimin yerində görməyə hazıram. Buyursun...***

**Azərbaycan bəşəriyyətdə atçılığın ilkin beşiklərindən olmaqla dünya atçılıq mədəniyyətinin ən yüksək nailiyyətlərinin yaradılmasında iştirak etmişdir (Nərimanov İ., s.43; Quliyev F., s. 111; Səttarzadə R.1971, s. 269-270; Verdiyev Z.Q., s.271; Kniqa o loşadi. T. 1, s.272-273).**

Hazırda dünyada 150-ə qədər at cinsi vardır. Bu cinslərin hamısı birdən-birə meydana gəlməmişlər. Bunlar əsrlər boyu davam edən təkamül nəticəsində biri digərindən törəmişdir. Cinslərin əmələ gəlməsində ilk növbədə təbii-tarixi amillərin rolu böyük olmuşdur. Sonralar isə ictimai-iqtisadi tələbatın nəticəsində müxtəlif cinslər yaradılmışdır. İnsanın şüurlu zəhməti, atlar üçün müvafiq yaşayış şəraiti yaratmaq, seçmə və taylaşdırma aparmaq, cinsarası çarpazlaşdırma və s. bu kimi tədbirlərin həyata keçirilməsi yüksək məhsuldar cinslərin yaradılmasına səbəb olmuşdur.

At cinslərinin mənşəyi haqqında hazırda iki nəzəriyyə var. Bunların biri polifilitik, digəri isə monofilitik nəzəriyyə adlanır. Polifilitik nəzəriyyənin müəlliflərinə görə, hazırkı əhil atlar bir neçə vəhşi əcdaddan əmələ gəlmişlər; monofilitik nəzəriyyənin müəllifləri isə bütün əhil atların bir vəhşi əcdaddan əmələ gəlməsi fikrindədirlər. Bu nəzəriyyənin tərəfdarları həmişə çox olmuş və artmaqda davam edir (Kniqa o loşadi. T. 1, s. 111-155; Səttarzadə R., 1971, s. 8-20).

Çoxsaylı arxeoloji qazıntılardan qədim dövrün erkən çağlarına dair atların əhliləşdirilməsini təsdiq edən osteoloji qalıqlara rast gəlinmişdir. Azərbaycan arxeoloji abidələrində əhililəşmiş atlara məxsus osteoloji qalıqlar b. e. ə. IV minillikdən (eneolit dövrü) başlanır. Qeyd etməliyik ki, mütəxəssislər arasında atların əhliləşdirilməsinin baş verdiyi ilkin ərazilər də mübahisə doğurur. Bütün bu mübahisələrin səbəbi atın əhliləşdirilməsinin insan həyatında mühüm rol oynaması ilə bağlıdır. Bu haqda tədqiqatçıların müxtəlif fikirləri mövcuddur. Bir çox tədqiqatçılar atın əhliləşdirilməsi prosesinin Avrasiya çöllərindən başlandığını və buradan da müxtəlif ərazilərə yayıldığını bildirirlər (Quliyev F., s. 20). Avrasiya materikində eneolit dövründə, e. ə. IV minilliyin ilkin çağında atdan istifadə edilməsi haqqında Azərbaycanda Əlköməktəpə arxeoloji abidəsi, e. ə. IV minilliyin sonu - III minilliyin birinci yarısını əhatə edən Qazaxıstanın Batoy arxeoloji abidəsi, e. ə. IV minilliyin ikinci yarısını əhatə edən Ukraynanın Orta Stoqov arxeoloji abidəsi məlumat verir (Quliyev F., s. 20-26). Təəssüf ki, arxeoloji abidələrdən tapılmış osteoloji materiallar vəhşi atların əhliləşdirilib ev atına keçid mərhələsini izləməyə imkan vermir. Dünya elmi bitki və heyvanların vəhşi əcdadlarının mövcud olduğu əraziləri onların mədəni növlərinin ilkin ocağı olması haqqında yekdil qənaəti məlumdur (Vavilov N.İ., s.44; Nərimanov İ., s.43). Arxeoloji abidələrdən tapılan osteoloji materiallar poleolit dövründən eneolit dövrü də daxil olmaqla Azərbaycanda fasiləsiz vəhşi atların mövcud olması, buranın Avrasiya materikində atın əhliləşdirildiyi ilkin ocaqlardan biri olduğunu göstərir (Cəfərov Ə., s.39; Mellarq D.İ. s.40).

Hələ e.ə. IV minilliyin sonu - III minillikdə, ilk tunc dövründə, Kür-Araz mədəniyyəti çağında dəniz səviyyəsindən 3000 m yüksəklikdə Kəlbəcər dağlarında qayaüstü rəsmlərdə və Naxçıvanın Gəmiqaya abidəsində at rəsmlərinin çəkilməsi və qədim at fiqurlarının yaradılması göstərilən çağda Azərbaycanda artıq atın müqəddəsləşməsi və at kultunun yaranmasının göstəricisidir (Quliyev F., s.40-51). Orta tunc dövründən - e. ə. II minillikdən atın sahibi ilə və ayrılıqda dəfn edilməsi Azərbaycan tayfalarının həyatında atın yüksək rolundan, xüsusən hərbi rolundan, onun mənəvi dünyasında, inanclar sistemində və etnik ideologiyasında mühüm yer tutmasından xəbər verir (Quliyev F., s.52-211).

Atçılıq vətənimizdə və dünyanın müxtəlif ölkələrində maldarlıq təsərrüfatının qədim sahələrindən biri olmaqla, cəmiyyətin mühüm ehtiyaclarını ödəmək məqsədi ilə inkişaf etdirilmiş və müxtəlif tarixi dövrlərin tələbatından asılı olaraq dəyişmişdir.

Canlı hərəkət vasitəsi kimi atdan istifadə texnikası da istehsal qüvvələrinin inkişafı ilə əlaqədar olaraq xeyli dəyişmişdir. İnsan öz tələbatını daha yaxşı ödəmək üçün seçmə, çarpazlaşdırma və müvafiq şərait yaratmaqla müxtəlif at cinsləri yaratmış və bunlardan geniş istifadə etməyə başlamışdır. Özünün sürətli yerişi, iş qüvvəsi və davamlılığı, gözəlliyi, əlavə məhsulları (ət, süd, dəri və s.) və xüsusən təsərrüfatın müxtəlif sahələrində maddi nemətlər istehsalında böyük rol oynadığı üçün, motor qüvvəsi meydana gələnə qədər, atçılıq əvəzedilməz bir sahə kimi müxtəlif ölkələrdə, o cümlədən, vətənimizdə inkişaf etdirilmişdir.

Təbii şəraitdən və ictimai inkişaf səviyyəsindən asılı olaraq atçılıq miqdar və keyfiyyətcə müxtəlif ölkələrdə fərqli səviyyədə də inkişaf etmişdir. Təbii-coğrafi şərait, səhra və yarımsəhra şəraiti, ilkin sivilizasiya və müharibələrdə atdan geniş istifadə edilməsi ilə əlaqədar olaraq minik atçılığı əvvəlcə şərq ölkələrində (Orta Asiyada, Yaxın və Orta Şərqdə), sonra isə qərb ölkələrində inkişaf etdiyi halda, qoşqu atçılığı, xüsusən ağır iş atları, əksinə, qərb ölkələrində geniş inkişaf tapmışdır (Kniqa o loşadi, s.155-514).

Təbii-coğrafi şərait, bəşəri sivilizasiyanın ilkin beşiklərindən biri olmaq etibarı ilə, ilkin dövlətlər, onların müharibələrinə cəlb olunmaq, kontinental Avropa-Asiya hərbi münaqişələrinin mərkəzində yerləşmək Azərbaycan atçılığının təməlindən minik, hərbi atçılıq istiqamətində yetişdirilməsinə səbəb olmuşdur. Azərbaycan at cinsləri tədqiq olunan XIX əsrin sonu - XX əsrin əvvəllərində də dünyada minik atı, hərbi at kimi öz yüksək dəyərini saxlamışdı (Razin E.A., s.114; Bünyadov T., s.6-26). "Azərbaycanın bütün rayonlarında yetişdirilməkdə olan yerli atların olduqca qədim tarixi var. Tarixşünaslar təsdiq edirlər ki, Azərbaycanın indiki ərazisində atçılıq qədim zamanlardan yüksək inkişaf səviyyəsində olmuşdur. Azərbaycan xalqı əhalisi yüksək keyfiyyətli, davamlı, nəcib və biçimli atlar yetişdirirdilər. Bu cəld və davamlı atlar Azərbaycan torpağını yadelli işğalçılardan qorumaqla xalqımıza böyük xidmət göstərmişdir". Tanınmış atçılıq mütəxəssisi Z.Q.Verdiyev sözünə davam edərək yazır: "Azərbaycan atı, xalqımızın əsrlər boyu apardığı seçmə nəticəsində əmələ gəlmişdir. Bu at daima ilxı şəraitində yetişdirildiyi üçün qiymətli keyfiyyətlər, o cümlədən, davamlılıq, möhkəmlik kimi gözəl xüsusiyyətlər qazanmışdır. Bu cins xalq seçməsinin məhsuludur" (Verdiyev Z.Q., s.66, 82).

Hələ qədim, orta əsrlər və tədqiq olunan yeni dövrdə Azərbaycan at cinsləri dünyanın ən məşhur, keyfiyyətli minik atı kimi qiymətləndirilmişdir. Dünyada at cinslərinin elmi əsaslarla öyrənilməsinə XVIII əsrdən, yəni Avropada kapitalizmin sürətli inkişafı ilə əlaqədar, müstəmləkəçilik siyasətini həyata keçirmək üçün hərbi nəqliyyat vasitəsi hazırlamaq siyasəti onların dünyanın minik hərbi at cinslərini öyrənmək və əldə etmək tədbirlərinə sövq etdi. Beləliklə, Avropa müstəmləkəçi dövlətləri Qarabağ, Axal-Təkə Türkmən və Ərəb atlarının birinci dərəcəli minik, nəqliyyat və hərbi cinsləri olduğunu müəyyən etdi. İngilislər bu cinslərin ayğırlarını ölkələrinə aparmaqla, onların genindən istifadə etməklə elmi əsaslarla Avropada sürətli, yaraşıqlı minik atları yetişdirdilər (Kniqa o loşadi. T. 1, s.142-144; Səttarzadə R., 1971, s.65-106; Verdiyev Z.Q., s.65-90).

İş qabiliyyətinə görə atları üç tipə: dağ minik-yük; düzən minik-yük-qoşqu və şimal meşə-qoşqu atlar tipinə ayırmaq olar (Səttarzadə R., 1971, s.80). Atlar tarixən minik, yük, qoşqu, ətlik-südlük və hərbi məqsədlə istifadə edilmişdir. Atın iş qüvvəsinə və bütün məhsullarına tarixən zəruri ehtiyac duyulmuşdur. Lakin onun hərbi rolu əvəzedilməz olmuşdur. Belə ki, atlar digər ev heyvanları ilə müqayisədə yüksək səviyyədə inkişaf etmiş həssaslıq kompleksinə malikdir. Atlarda hiss üzvləri yaxşı inkişaf etmişdir. At insandan yaxşı eşidir. O, uzaqdan gələn ən cüzi bir şıqqıltını belə eşidir. Öz minicisinin səsini başqalarınınkından, xoş və ya sərt səsləri asanlıqla bir-birindən fərqləndirir. Atın iy bilmək qabiliyyəti də insanınkından üstündür. O, vəhşi heyvan izinə düşən kimi fınxırır, iyinə görə öz tövləsini tapır, zəhərli otları yeməli otlardan seçir. At yaxşı görür, onun görmə sahəsi 360 dərəcəyə çatır (insanınkı - 200 dərəcəyə yaxındır), gecə görmək qabiliyyəti də yaxşıdır. Dəri hiss analizatoru tumarlamaq və ya qamçı ilə vurmaq vasitəsilə istifadə olunur. Şərti reflekslərinin yaradılmasında dad analizatorundan da daha çox istifadə olunur. Məşq zamanı hərəkət analizatorunun da rolu çox böyükdür (Səttarzadə R., s. 141).

Məhz elə bu keyfiyyətlərinə görə tarixən Azərbaycan folklorunda və yazılı ədəbiyyatında at igidin qardaşı, onun qəhrəmanlığının şəriki hesab olunmuşdur.

XIX - XX əsrlərdə atın elmi əsaslarla müəyyən edildiyi bu xüsusiyyətləri Azərbaycan xalqının milli mədəniyyətinin, etnos olaraq dünyabaxışının təməl sənədi "Dədə-Qorqud kitabı"nda çox dəqiqliklə sezilərək deyilmişdir:

Açıq-açıq meydana bənzər sənin alıncığın,  
Eki şıbçırağa bənzər sənin gözcigezin.  
Əbrişimə bənzər sənin yəlincigin,  
Eki şıbçırağa bənzər sənin gözcigəzin.  
Əri muradına yetirər sənin arxacığın.  
At deməzəm sana, qartaş deyərəm.  
Qartaşlarından yeg!  
Başıma iş gəldi, yoldaş deyərəm,  
Yoldaşımdan yeg" (Kitabi-Dədə Qorqud, s. 60).

XVII əsr Azərbaycan türklərinin qəhrəmanlıq salnaməsi "Koroğlu" dastanında qəhrəman atını təsvir, tərənnüm edərək deyir:

Atı sevib bəslə körpə  
Hayqıranda çıxsın sarpa,  
Hər yeyəndə qırx taş arpa,  
At igidin qardaşıdı.

Uzaq-uzaq yollarınan,  
Beli ipək çullarınan,  
Hoqqa yarım nallarınan,  
At igidin qardaşıdı.

Məclis qurdum çoxlarınan,  
Dava etdim oxlarınan,  
Qara polad mıxlarınan  
At igidin qardaşıdı.

Sərin-sərin yu suyunan,  
Quyruğunu bağla muyunan,  
Qoç Koroğlu çox öyünən  
At igidin qardaşıdı.

Qıratın qaçırılması zamanı Koroğlu onu belə qiymətləndirir:

Əylən deyim Qıratın qiymətini,  
Səksən min sərkərdə, mala da vermə!  
Səksən min ağ tüklü qəmər öyəcə,  
Səksən min xəzinə pula da vermə!

Səksən min ilxıya, səksən min ata,  
Səksən min mahaldan gələn barata,  
Səksən min kotana, səksən min cütə,  
Səksən min kotanlı kala da vermə!  
(Koroğlu, 1956, s. 157-158).

Rus imperiyasına qarşı milli-azadlıq hərəkatının qəhrəmanlarından Qaçaq Nəbidən bəhs edən dastanda onun Boz atı aşağıdakı kimi vəsf olunur:

Boz atım davada pələngdir pələng,  
Qızılquş baxışlı, gözləri qəşəng.  
Belində qılıncım, çiynimdə tüfəng,  
Boz atım, yeri ha, aman günüdü!  
Həcərin qalada yaman günüdü!

Nəçənnik, qoburnat hey kağız yazar,  
Onların yazdığın Qoç Nəbi pozar.  
Yeri, Boz at, Həcər qaldı intizar.  
Boz atım, yeri ha, aman günüdü!  
Həcərin qalada yaman günüdü!

Nəbi atar yağıların daşını,  
Toz eyləyər düşmənlərin başını,  
Bir qıy vurub alar Gorus qaşını,  
Boz atım, yeri ha, aman günüdü!  
Həcərin qalada yaman günüdü!  
(Qaçaq Nəbi, 1941, s. 59-60).

*Davamı 5-ci səhifədə*

# QARABAĞ ATI

*Əvvəli 4-cü səhifədə*

Göründüyü kimi, ən qədim dövr, orta əsrlər və yeni dövr Azərbaycan xalqının qəhrəmanlıq dastanlarında Azərbaycan atları bu qəhrəmanlığın tam şəriki, onun bir tərəfidir. Ən qədim dövrdən, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan xalqının at haqqında empirik bilgilərində atın rəftar və davranışı, digər xüsusiyyətləri haqqında elmi-tədqiqat nəticələri ilə təsdiq olunması xalqımızın bu haqda hələ ən qədimlərdən zəngin təcrübəyə, bilgiyə malik olduğunu göstərir. Elə bunun nəticəsidir ki, xalqımız şərq xalqlarının üç minik, hərbi at cinsi - Qarabağ, Axal-Təkə və Ərəb cinsindən birinin yaradıcısıdır. Bu cins (Qarabağ atı) Ərəb, Axal-Təkə at cinsləri ilə bərabər XVIII-XX əsrlərdə elmi seleksiya ilə dünyanın digər ölkələrində yaradılan minik-hərbi at cinslərinin genetik əsası kimi istifadə olunmuşdur (Səttarzadə R., 1971, s.269; Verdiyev Z.Q., s. 271; Kniqa o loşadi. T. 1, s.272).

Tarixi materiallar göstərir ki, hələ bəzi Şərq xalqlarının yaxşı atı olmayan dövrlərdə, qədim Azərbaycan özünün tanınmış və geniş yayılmış yüksək keyfiyyətli atları ilə şöhrət qazanmışdır (Səttarzadə R.X., Həsənov S.O., 1974, s.80; Verdiyev Z.Q., s.11-12).

Azərbaycan atları əsrlər boyu müəyyən təbii-tarixi şəraitin təsiri altında, habelə xalqın həyat və təsərrüfat tələbatı nəticəsində dəyişmiş və beləliklə ölkədə də bir sıra yerli at cinsləri və tipləri əmələ gəlmişdir. Bunlardan ən yaxşıları Qarabağ, Qazax (Dilboz), Quba və Şirvan atlarıdır (Səttarzadə R.X., Həsənov S.O. 1974, s.12).

Qarabağ atı Azərbaycanın ən qədim və qiymətli at cinsidir. Lakin onun mənşəyi haqqında tarixi və zootexniki ədəbiyyatda aydın məlumat yoxdur. Qarabağ atı haqqında atçılıq ədəbiyyatında ilk dəfə rus mütəxəssisi Kerestinq 1824-cü ildə məlumat vermişdir. O, 1822-ci ildə Qacarlar monarxiyasına gedərkən Gürcüstanda Qarabağ və Xivə atlarını gördüyünü və onları çox xoşladığını yazır. Lakin o, heç bir tarixi ədəbiyyata istinad etmədən Qarabağ at cinsinin mənşəyi haqqında yanlış mülahizə irəli sürür (Səttarzadə R.X., Həsənov S.O., 1974s. 12-13).

Uzun illər (30 il) Qafqazda, o cümlədən, Qarabağda yaşamış çar ordusunun süvarisi üçün at alan polkovniki Diterix 1866-cı ildə Qarabağ atçılığına dair çap etdirdiyi əsərində ilk dəfə olaraq Qarabağ at cinsi haqqında zəngin məlumat verir. Qeyd etmək lazımdır ki, hələ I Pyotrun Xəzərsahili vilayətləri işğal dövründən Azərbaycan atçılığı, xüsusən Qarabağ at cinsi Rus imperiyası atçılıq mütəxəssislərinin diqqətini çəkmiş, onlar paralel olaraq Qarabağ at cinsinin ən yaxşı nümunələrini Rusiyaya aparmaq və bu cinsin genotipini öyrənməklə məşğul olmuşlar (Səttarzadə R.X, Həsənov S.O. 1974, s. 270). Əsasən də yanlış, ziddiyyətli nəticələr söyləmişlər. Rusiya atçılıq mütəxəssisləri K.Diterixs, L.V.Kaştanov, S.Talizin, İ.İ.Kalugin, Q.Freytaq və başqaları Qarabağ atını Ərəb, Axal-Təkə atlarının və Nadir şahın at ilxılarının qalığından törəmə bir cins kimi dəyərləndirmişlər (Bünyadov T. 1977, s.12-20; Səttərzadə R.X., Həsənov S.O. 1974, s. 12-14). Rus imperiyası atçılıq mütəxəssislərinin bu mülahizələri ilə düzgün olaraq razılaşmayan atçılıq mütəxəssisləri R.Səttarzadə və S.Həsənov yazırlar ki, Qarabağ at cinsinin XVIII əsrin ortalarında ərəb və İran atlarının iştirakı ilə əmələ gəlməsi fikrini qəbul etmək çətindir. Əla, bu dövrdə İran adlı ölkə, dövlət yox idi. Digər tərəfdən iki bir-birindən fərqli anlayış, yəni Qarabağ cinsinin mənşəyi və yaradılması məsələsini ona sonralar bu və ya digər cinsin təsir göstərməsi məsələsi ilə qarışdırmaq olmaz.

Azərbaycan atları haqqında göstərilən tarixi məlumatlara əsasən belə nəticəyə gəlmək olar ki, Qarabağ atı qədim bir cinsdir. O, qədim Azərbaycan atlarının nəslindəndir, onların bir qolu, bir tipidir. Hələ Ərəb atı haqqında heç bir məlumat olmayan qədim dövrdə yuxarıda qeyd edildiyi kimi, Aərbaycan atları (o cümlədən də Qarabağ atları) yaxşı tanınmış, şöhrət qazanmış və bir çox Şərq ölkələrinə aparılmış qiymətli atlar olmuşdur (Səttarzadə R.X., Həsənov S.O. 1974, s.14).

Lakin bununla birlikdə bir cəhəti də qeyd etmək lazımdır ki, görünür XVIII əsrin ortalarında Xan ilxılarında Qarabağ atı Ərəb, Qacarlar monarxiyası və Türkmən atları ilə cütləşdirilmişdir. Bunun nəticəsində də Qarabağ cinsindən sonralar bəzi yeni tip və nəsillər əmələ gəlmişdir. "Nəticədə biz bir daha qeyd edə bilərik ki, Qarabağ atı Azərbaycanın xalis yerli qədim at cinsidir. Bu cins xalqın əsrlər boyu apardığı yaradıcılıq işi sayəsində, xalq seleksiyası (seçmə) nəticəsində yaradılmışdır" R.X.Səttarzadə, S.O.Həsənov, s. 14-15).

XIX əsrin sonlarında yaşamış Rusiya atçılıq mütəxəssisi D.Dubenski yazır: "Zaqafqaziya at cinslərinin sayca çox olmasına baxmayaraq, əslində bu cinslərin hamısı Zaqafqaziyanın əsas cinsi olan Qarabağ at cinsinin nəsli dəyişmiş qollarıdır" Bünyadov T., 1977, s. 12). XIX əsrin sonlarında Zaqafqaziya maldarlığının tədqiqatçılarından İ.Z.Andronikov yazır: "Zaqafqaziyanın müxtəlif at cinsləri arasında Qarabağ atı xüsusilə məşhurdur. Özünün qızılı rəngi, gözəl forması ilə də fərqlənir (Andronikov İ.Z., s.261). Rusiyanın görkəmli atçılıq mütəxəssisi S.Urusuov yazır: "... təmiz qanlı ingilis atının qərb atçılığına təsiri necə isə Qarabağ atının Asiya atçılığına təsiri elədir" (Kniqa o loşadi. T. 1, s.473). Bu sözləri deyərkən S.Urusov gen qanunlarını nəzərdən qaçırır, unudur ki, Qarabağ min illər ərzində öz ilkin təməlində təkamül etmiş, vahid genotip təşəkkül etmiş, müstəqil yaradıcılıq keyfiyyətinə malik müstəqil genotipdir. İngilis atı isə seleksiya üsulu ilə yaradılmış müxtəlif keyfiyyətli genlərin moduludur, bir cinsdir. Bu, birinci nəsildə onun keyfiyyətləri az-çox özünü göstərsə də, ikinciüçüncü nəsildə parçalanıb itəcək. İngilis təmizqanlı atçılığı özü belə qeyri-obyektiv anlayışdır. Belə ki, cinsin ata nəsli üç cinsdən formalaşdığı halda, o, necə təmiz qanlı ola bilər?



Atçılıq mütəxəssisi Z.Q.Verdiyev Qarabağ atının eksteryeri haqqında yazır: "Keçmiş Qarabağ atını görənlər onu belə təsvir edirlər: quruluşu quru və bərk, əzələləri inkişaflı, vətərləri görkəmli, ayaqları möhkəm və quru, başı xırda, alnı və burun xətti düz, lakin enli, gözləri çıxıq, iri və alovlu, boynu orta uzunluqda və dik duruşlu, cidovı orta hündürlükdə ((145-150 sm), dalı adətən düz və sağrısı möhkəm bağlı, gövdəsi dərin, ayaqları aralı, dal ayaqları qılıncvari, dırnaqları xırda və möhkəm, dərisi nazik, tükləri yumşaq və parlaq, rəngi: narıncı, qızılı, kürən (sarılar) və qızılı kəhər (Z.Q.Verdiyev, s.85).

Konstitusiyası (bədən quruluşu tipi) möhkəm, əzələ-tənəffüs tipli, temperamenti canlıdır. Hərəkəti səlis, hündür və çevikdir. Bu atların ilxı şəraitində saxlanması onların sağlam və davamlı olmasına səbəb olmuşdur (Səttarzadə R.X., Həsənov S.O., 1974, s.18; Kniqa o loşadi. T. 1, s.474).

Cinsin rəngi və nişanları mütənasib, xoş və Qarabağ atlarına məxsusdur. Qarabağ atına daha bir gözəllik verən və başqalarından fərqləndirən onun limonu, yaxud sarı-qızılı rəngə yaxın parlayan narıncı rəngi olmasıdır. Yalnız Qarabağ atına məxsus olan bu orijinal əsas rəngin dəyişmiş formaları - kürən, qızılı-kəhər, qızılı-qonur və qula rənglərdir.

Qarabağ atının xarakter nişanları - ayaqlarını müxtəlif dərəcədə səkil (ağlıq), alnının isə təpəl (qaşqa) olmasıdır. Bu nişanlar xüsusən Ceyran tipində çox təsadüf edilir. Həmçinin qeyd etmək lazımdır ki, bu atların dərisi bəzən tüksüz və qara rəngdə olur (Səttarzadə R.X., Həsənov S.O., s.18).

Qarabağ atının iş qabiliyyəti tarixən yüksək qiymətləndirilmişdir. Lakin məlumdur ki, Qarabağ atı, xüsusən dağlıq şəraitdə minikdə və yükdə çox davamlıdır. Bu cins bədəninin yığcam olması, yumşaq hərəkəti və yaxşı sürəti etibarı ilə də fərqlənmişdir. Qarabağ atının əsas yerişi addımları geniş və cəldçaparaq, bütün hərəkətləri çevik və yaraşıqlıdır.

Qutten-Carski yazır: "Köhlən, yəni əsl Qarabağ atı düz yerdə qaçmaqda başqa cinslərdən geri qaldığı halda, dağ və dağdan enişə yürüşdə onların hamısını ötür. Qarabağ atının hərəkət xüsusiyyətlərindən biri də ondan ibarətdir ki. bu atlar ən sürətli yürüş zamanı birdənbirə dayana bilər" (Kniqa o lo.adi. T. 1, s. 476; Səttarzadə R.X., Həsənov S.O.,1974, s.20).

Qarabağ atının sürəti haqqında bir qədər sonrakı dövrlərə (XIX əsrin sonu - XX əsrin əvvəlləri) aid bəzi məlumata Qafqaz döllük atçılığını fərəhləndirmək cəmiyyətinin və Cıdırı fərəhləndirmək üçün Tiflis cəmiyyətinin hesabatında rast gəlmək olur. Belə ki, birinci cəmiyyətin 1894-cü ilə aid hesabatında göstərilir ki, Tiflis cıdır meydanında Qarabağ cinsindən olan 8 yaşlı kəhər rəngli, yorğa yerişli bir at 4 versti (4 268 m) 9 dəqiqə 25 saniyəyə qət etmişdir (Kniqa o loşadi. T. 1, s.20).

Qarabağ at cinsindən olan Sərdar, Sultan, Şah, Ağalar, Dofar, Maymun və s. ayğırlarının Rus imperiyası süvari alaylarının zabitlərinin istifadəsində olması bu cinsin yüksək iş qabiliyyətindən, hərbi at kimi yüksək dəyərindən xəbər verir.

V.A.Çudovski 1914-cü ildə yazır: "Rus hərbi dəstələri Zaqafqaziyada olduğu zaman bütün alay zabitlərində çoxlu Qarabağ atları var idi. Bu atlar bütün Zaqafqaziya habelə İran və Türkiyə sərhədləri boyu yürüşlərdə yaxşı davam gətirmişlər. Qarabağ atının hərbi yürüşdəki şücaəti hələ XIX əsrin birinci yarısında rus şairləri M.Y.Lermontov, A.S.Puşkin tərəfindən tərənnüm olunmuşdur" (Kniqa o loşadi. T. 1, s.20-21).

Şuşa şəhərində olmuş məşhur rus rəssamı V.Verşagin Qarabağ atına valeh olaraq onun şəklini çəkmişdir. V.Verşagin xatirələrində yazır: "Bu atların gözəlliyi adamı valeh edir. Qarbağda hər bir bəyin həm xanlıq tövləsi, həm də at zavodu var. Tatarlar (türklər - X.X.) öz atlarına qulluq etməkdən həzz alırlar. Təmiz cinsli Qarabağ atları son dərəcə gözəldir. Bütün türk atları kimi Qarabağ atlarının da quyruğu çox sıxdır. Bu atların başına və ayaqlarına tamaşa edəndə adama elə gəlir ki, xalis Ərəb atına tamaşa edirsən (Şuşinski, F. 1998, s.78-79).

Qarabağda olmuş səyyah Arnold Zisermanın da Qarabağ atı haqqında xatirəsi maraqlı olduğu qədər də qiymətlidir. O, yazır: "Kürqulaqçay stansiyasında bizi Qarabağ bəyləri qarşıladılar. Onların mindikləri Qarabağ atlarının gözəlliyi bizi valeh etdi. Mən əvvəllər bu atların qəşəngliyi və sürətli qaçışı haqqında çox eşitmişdim. Lakin indi bir daha əmin oldum ki, dünyada bu atlardan yoxdur. Xüsusən kürən və səmənd atların görkəmi, boy-buxunu, boynu və yanar gözləri adamı riqqətə gətirir. Bu atların hər birinə Avropa bazarlarında dörd min gümüş pul verərdilər" (Şuşinski F., 1988, s.78-79).

Mənbə və ədəbiyyat məlumatlarına görə, Qarabağ atının köhnə tipləri (nəsilləri) Maymun (xoşbəxt), Qarnıyırtıq və Ətyeməz (Ceyran) adlı ayğırların nəsli olmuşdur.

Maymun adlı ayğırın nəslindən olan atlar enli alınlı, bir qədər uzunsov sifətli və uzunsov gövdəli, sağrısı yaxşı inkişaf etmişdir. Bu nəsildən olan atlar, digər tip atlara nisbətən uzaq və ağır qaçışlara davamlı olmaqla, bir qədər sakit temperamentli olmuşdur.

Qarnıyırtıq nəslindən olan atlar olduqca yaraşıqlı (xüsusən başları), boynu hündür duruşlu, bir qədər dalğın olmuşlar. Bu atların xarakteri oynaq, hərəkəti səlis, çevik olmaqla, gücü və davamlılığı etibarı ilə Maymun tipindən geri qalır.

Ceyran tipindən olan atlar quru və yüngül (xüsusən qabaq tərəfi), hərəkəti cəld və hündür sıçrayışlı olmuşdur. Gücü və davamlılığı etibarı ilə birinci tipdən geri, ikinci tipdən isə üstündür. Qısa məsafələrə qaçmaqla hər iki tipdən olan atları ötüb keçirlər.

Göstərilən üç tip təmizqanlı (köhlən sarılar) atlardan başqa, keyfiyyətlərə və xüsusən rənginin parlaqlığına görə qalın sarılar, sarılar və cins sarılar adlanan atlar da olmuşdur.

Ceyran tipinin boz rəngdə olan hissəsi Gülgün adlanırdı. XIX əsrin əvvəllərində Qarabağ cinsində Təkə-Ceyran və Toxmaq adlanan yeni qiymətli tiplər də yaranmışdı (Kniqa o loşadi. T 1, s.473-476; Səttarzadə R.X., Həsənov S.O., 1974, s.15-20).

Qarabağ atının döllük və iş qabiliyyəti o qədər diqqəti cəlb etmişdi ki, XIX əsrin ortalarından başlayaraq bu cinsdən olan atlar 1866, 1869, 1872-ci illərdə Moskvada Ümumrusiya sərgisində və hətta 1867-ci ildə Parisdə Ümumdünya At Sərgisində belə nümayiş etdirilmişdir.

Rusiya döllük atçılığını yaxşı bilənlərdən biri olan V.İ.Kopteyev göstərir ki, 1866-cı ildə Moskvada keçirilmiş Ümumrusiya At Sərgisində Qafqazdan Molstovun at zavodundan Xan adlı çox qəşəng ayğır nümayiş etdirilmişdi. Moskvada 1869-cu ildə keçirilmiş ikinci sərgiyə Qafqaz valisi tərəfindən göndərilmiş Maymun adlı ayğır sərgidə gümüş medal və 300 manat mükafat almışdır. Molotok və Səlbinaz adlı Qarabağ ayğırları da sərgidə nümayiş etdirilmiş, tunc medal və tərifnamə almışlar (Kniqa o loşadi. T. 1, s. 25).

*Davamı 6-cı səhifədə*

# QARABAĞ ATI

*Əvvəli 5-ci səhifədə*

V.İ.Koreteyev öz əsərində xarici mütəxəssislərin Qarabağ atlarına verdikləri yüksək qiyməti belə qeyd edir. Məsələn, Avstriya Kənd Təsərrüfatı nazirliyinin sərgiyə ezam edilmiş nümayəndəsi 1869-cu ildə qəzetdə dərc etdirdiyi məqaləsində Qarabağ atlarını yaraşıqlı, əla, yüngül süvari atlar adlandırır. Sərginin digər iştirakçılarından biri Fransa jurnalında çap etdirdiyi hesabatında sərgidə iştirak edən Qarabağ atları içərisində bədən hissələrinin möhkəmliyi, sağrısının enliliyi və ağır yük aparmağa qabil olması etibarı ilə "Ağalar" adlı əla bir ayğırın xüsusilə fərqləndiyini göstərir. 1872-ci ildə açılmış sərgidə də Qarabağ atları iştirak etmiş və "Bayram" adlı ayğır üçüncü pul mükafatına layiq görülmüşdü. Həmin sərgidən bəhs edən V.İ.Kopteyev Qarabağ atını ahuya bənzədir (Bünyadov T., 1977, s.18-19).

1910-cu ildə Rostov-Donda keçirilən sərgidə Qarabağ at cinsindən "Həsən" adlı ayğır iştirak etmişdir. 1912-ci ildə Pyatiqosk şəhərində keçirilmiş Qafqaz atçılarının birinci dairə sərgisində 11 baş Qarabağ atı nümayiş etdirilmiş, atçılıq mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmişdir (Kniqa o loşadi. T. 1, s.26-27).

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının ilk günlərindən ilk talançılıq Azərbaycan atlarına qarşı başlandı. Azərbaycanın xan və bəylərinə məxsus at zavodları qarət edilib Rusiyaya aparılmış, Avropa ölkələrinə satılmış, hətta ayrı-ayrı fərdi yüksək keyfiyyətli damazlıq atlar da zorakı surətdə sahiblərinin əlindən alınmışdı. Bu siyasət Rus imperiyasının varlığının son gününə qədər davam etdi. Odur ki, əhali həmişə atları saydan gizlətməyə çalışırdı (Səttarzadə R.X., Həsənov S.O., 1974, s. 21-33). Tədqiqatçıların etiraf etdikləri kimi, çar Rusiyasının hakimiyyəti illərində Azərbaycan atçılığının sayı haqqında obyektiv məlumat yoxdur.

M.A.Skibitski 1889-cu ildə nəşr olunan əsərində yaylaq mövsümündə Qarabağ yaylaqlarında 19397 baş at olduğunu yazır (SkibitskiM.A., s. 51). Nəzərə alsaq ki, köçmə maldarlıqla məşğul olan əhali Qarabağ əhalisinin 25%-dən çoxunu əhatə etməmişdir. Onda bu rəqəm əhalinin cüzi hissəsini əhatə edən rəqəm olduğunu deməyə əsas verir. Ümumiyyətlə yaylaqda mal-qaranın. xüsusən atın dəqiq hesablanmasını təşkil etməyin mümkünsüz, çətin olduğunu, əhalinin daima atları saydan gizlətməyə çalışdığını da əlavə etsək, bu rəqəmin çox cüzi olub, həqiqəti ifadə etmədiyini, Qarabağda atların göstərilən rəqəmdən qatqat çox olduğunu deməyə əsas verir.

İ.İ.Kaluginin 1926-1927-ci illər Azərbaycan atçılığının tədqiqi zamanı gəldiyi nəticələr də maraqlıdır. İ.İ.Kalugin yazır: "Ekspedisiyanın üzvləri Qarabağ atını axtarmağa başladılar, lakin onu tapa bilmədilər. Çünki, haqqında çox danışılmış və hazırda da danışılan Qarabağ atı, demək olar ki, 1905-ci ildən əksər zavodların ləğv edilməsi ilə əlaqədar olaraq tələf olmuşdur. Bəzi keçmiş at zavodu sahiblərində Qarabağ atları 1919-1928-ci illərə qədər qalmışdı. Bu zaman isə cinsin axırıncı nümayəndələrinin nəsli həmişəlik kəsilmişdir" (Kalugin İ.İ. T. 5, s.20-180).

Azərbaycan atçılıq tədqiqatçıları R.Səttarzadə və S.Həsənov İ.İ.Kaluginin bu fikrinə qəti etiraz etmişlər.

İ.İ.Kalugin 1928-ci il Azərbaycanda kolxoz quruculuğuna qədər Qarabağ və Dilboz atlarının mövcudluğunu yazır. Mənbə və tədqiqatlardan məlum olduğu üzrə yüksək keyfiyyətli elit yuxarıda təsvir olunan eksteryer və iş keyfiyyətinə malik Qarabağ və Dilboz atları Azərbaycanın Xan sülaləsinə, bəy və ağalarına məxsus idi. 1927-1928-ci illərdə Azərbaycanda kolxoz quruculuğunun başlanması ilə bu zümrə məhv edildi. Məlum olduğu üzrə Azərbaycan xalqının adətinə görə, at kişinin namusu hesab olunurdu, kişinin atını başqası minə bilməzdi. Odur ki, kollektiv-kolxoz təsərrüfatlarında atların dünənki nökərlər tərəfindən mənimsənilməməsi üçün bu hakim zümrə atlarını Qacarlar monarxiyası və Türkiyəyə keçirə bilməyəndə, atlarını və özlərinin təhqir olunmaması üçün onları kütləvi məhv etdilər. Bir tərəfdən də hakimiyyətə gəlmiş muzdur və nökər təbəqəsi rus bolşeviklərinin fitvası ilə xan və bəy nəslindən qisas almaq üçün onların atlarının qulağını, irtməyini kəsərək onları və atları təhqir edir və öldürürdülər.

Beləliklə, elit Qarabağ at cinsi məhv edildi. Kəndlərdə aşağı zümrədə mövcud olan Qarabağ atları bu cinsin sadəcə olaraq genotipi idi. Bu genotipdən minik iş qabiliyyəti, eksteryeri, interyeri etibarı ilə dünyada dillər əzbəri olan Qarabağ cinsini yenidən yaratmaq üçün uzun bir vaxt lazımdır. Məlum olduğu üzrə 1949-cu ildə Qarabağ atının damazlıq ocaqları yaradılsa da, müəyyən uğurlar qazanılsa da, bu cinslərin tarixi şöhrətini bərpa etmək mümkün olmadı. Müstəqillik illərində Azərbaycan atçılığına, xüsusilə Qarabağ və Dilboz cinsinin tarixi şöhrətinin bərpasına xüsusi bir milli maraq yaranmışdır. Ümid edirik ki, bu maraq Azərbaycanın Qarabağ və Dilboz at cinslərinin tarixi şöhrətini bərpa edəcək.

Lənətə gəlmiş kommunist rus imperiyası Azərbaycanın maldarlıq təsərrüfatında "Damazlıq idarəsi" və damazlıq təsərrüfatlar yaratsa da, bu müəssisələr formal xarakter daşıyırdı. Misal üçün, İmişli və Ağcabədi rayonlarında Qarabağ qoyun cinsinin Qaradolaq populyasiyasının damazlıq təsərrüfatları yaradılsa da, bu təsərrüfatlarda damazlıq işinin təşkili üçün praktiki olaraq heç bir şərait yaradılmadı, ənənəvi kolxoz təsərrüfatlarından başqa bir şey deyildi. Eyni ilə Şəki rayonunda yaradılan "Daşüz damazlıq camışçılıq təsərrüfatı". Bu təsərrüfat uzun illər mövcud olsa da, onun fəaliyyətini müsbət nəticəsi haqqında heç bir məlumat verilmədi. Damazlıq təsərrüfatları formal xarakter daşıyır, formal olaraq kağız üzərində hesabatlar, ona ayrılmış vəsaitin mənimsənilməsindən başqa bir şey deyildi. Bu idarənin gördüyü iş Azərbaycanın iqlim şəraitinə münasibliyi nəzərə alınmadan, rusiyadan müxtəlif inək cinslərini gətirib kolxoz və sovxozlara satmaqda ibarət idi. Kommunist rus imperiyası çağında Azərbaycan maldarlıq təsərrüfatlarında yaradılmış "Damazlıq idarələri"ndən elmi seleksiya, gen yaradıcılığı haqqında heç bir iz qalmadı.

Lənətə gəlmiş kommunist rus imperiyasının Azərbaycanda yaratdığı digər maldarlıq damazlıq təsərrüfatlardan fərqli olaraq 1949-cu ildə yaradılan Suvorov adına "Ağdam Atçılıq zavodu"ndan xeyir gördük. Belə ki, "Ağdam Atçılıq zavodu"ndan da bizə yüksək elmi seleksiya nəticəsi qalmadı. "Ağdam atçılıq zavodu" yaradılanda genetika elmi, elitaya, zadəgana xidmət edən elm kimi həbsxanada idi. Genetika elmi 1952-ci ildə Stalinin ölümündən sonra azad edilsə də, rus bolşeviklərinin sinifilik siyasətinə zidd olduğundan o, geniş təbliğ olunmadı. Elmi genetikanın nailiyyətləri əsarət altına salınmış xalqlardan gizli saxlanırdı. Belə ki, Qarabağ maldarlarının, o cümlədən, atçılarının yaratdıqları və istifadə etdikləri empirik seleksiya üsulları imperiyanın Azərbaycanın damazlıq idarəsində tətbiq etdiyi seleksiya üsullarından qat-qat yüksək idi.

Qarabağ "Ağdam atçılıq zavodu"nun ilk əməkdaşları bu müəssisəni Qarabağ atçılarının tarixən yaratdıqları empirik seleksiya üsulları əsasında yaratdılar. Təsərrüfatların damazlıq kitabından göründüyü kimi, 1960-cı illərin sonlarından günümüzə qədər "Ağdam atçılıq zavodu"nda tətbiq edilən seleksiya üsulu Qarabağ atçılarının tarixən yaratdıqları empirik seleksiya üsulundan çox geri qalır. Müasir dövrümüz üçün elmi seleksiya adlana bilməz.

"Ağdam atçılıq zavodu"nun ən böyük xidməti ondan ibarət oldu ki, insanlıq və mənəviyyatın, zəkanın və elitanın düşməni kommunistlərin məhvolma həddinə çatdırdıqları bəşəriyyətin atçılıqda ən yüksək nailiyyəti olan Qarabağ atının vilayətin künc-bucağında ilişib qalmış genofondunu toplayıb bərpa etdi. Qoruyub yşatdı, bu günümüzə çatdırdı.

Bütün Qafqazı, hətta ondan geniş ərazini əhatə edən Qarabağ qoyunu, Qarabağ inəyi və Qarabağ at cinsi Qarabağ tarixi etnoqrafik əyalətinin toplumunun empirik üsulla yetişdirilməsinin məhsuludur. "Ağdam atçılıq zavodu" da Qarabağ atçılarının empirik təcrübəsi əsasında quruldu və inkişaf etdirildi.

Hələ gənc yaşlarından "Ağdam atçılıq zavodu"nda əmək fəaliyyətinə başlamış, 1984-cü ildən 2021-ci ilə qədər "Ağdam atçılıq zavodu"nun direktoru olmuş Hüseynov Maarif Məmməd oğlu zavoda atların seçilib toplanması, burada atların bəslənməsi, onların damazlıq keyfiyyətinin müəyyənləşdirilib möhkəmlənməsi, artırılması haqqında Əkbərov Abbas Əhməd oğlunun fəaliyyətindən ürək dolusu danışır ki, onun "Ağdam atçılıq zavodu"nda istifadə etdiyi üsulun hamısı Qarabağ əhalisinin yaratmış olduğu metodlaar idi. Əkbərov Abbas Əhməd oğlu 1949-cu ildə Şuşa Kənd Təsərrüfatı Texnikumunu bitirmişdi ki, bu zaman SSRİ-də genetika elmi həbsxanada idi, tədrisdə ondan bəhs olunmurdu. Hətta burada Kirovabad (Gəncə) Kənd Təsərrüfatı İnstitutunu bitirmiş adamların işləməsi belə təsərrüfatın elmi əsasla işlədiyini deməyə əsas vermir. Çünki bu müəssisədə istər tələbə qəbulu, istərsə də təhsil müddətində kütləvi rüşvətxorluq hakim olmuşdur. Bu təhsil müəssisəsi də çox az elmi səviyyəyə malik olmuşdur. Bunu bu müəssisədə heyvandarlığın müxtəlif sahələrinə aid yazılmış əsərlər aydın göstərir. Genetika, heyvan cinslərinin seleksiyası haqqında ayrı-ayrı dərslik və mövzularda yazılmış əsərlərdə ötəri mülahizələr istisna edilərsə, bu sahə də elmi mülahizə doğuran elə bir əsər yazılmamışdır.

Qarabağ at cinsinin qorunub günümüzə gətirib çatdırılması üçün "Qarabağ atçılıq zavodu"nda əməyi olmuş bütün atçıları minnətdarlıqla xatırlamağa borcluyuq. Təəssüf ki, burada onların hamısının adlarını çəkməyə imkanımız yoxdur, bu, xüsusi tədqiqatın mövzusudur.

1993-cü ildə Ağdam rayonunun işğalı zamanı mal-qaranın işğal zonasından çıxarılması üçün təşkil olunmuş hökumət komissiyasına sətirlərin müəllifi rəhbərlik edirdi. Odur ki, Qarabağ atlarının xilas edilməsinə milli namus işi kimi yanaşdım. Təsadüfi deyil ki, Kənd Təsərrüfatı Nazirliyinin atçılıq üzrə baş mütəxəssis, vətənpərvərliyi və vicdanlı işi ilə fərqlənən Niyazi Səfərov həmin günlərdə "Ağdam atçılıq zavodu"nda ezamiyyətdə idi.

1993-cü ildə Ağdamın Ermənistan tərəfindən işğalı zamanı "Ağdam atçılıq zavodu"ndakı atların xilas edilməsində zavodun direktoru Maarif Hüseynovun xidməti xüsusilə qeyd edilməlidir. Bu yazını yazarkən Maarif Hüseynovdan Qarabağ atlarının qorunmasında əməyi olan adamları soruşarkən dünyasını dəyişmiş adamlardan Niyazi Səfərovun adını xüsusi vurğuladı. Bildirdi ki, o, ömrünün sonuna kimi "Ağdam atçılıq zavodu"na kömək etdi. Bu işdə əməyi olan adını çəkə bilmədiyimiz bütün insanlardan üzr istəyirik.

Müharibə nəticəsində iqtisadiyyatı pozulmuş, xaos yaranmış şəraitdə "Ağdam Atçılıq zavodu"nun problemlərini Respublika Prezidentinə çatdıra bilməsi Maarif Hüseynovun fədakarlığı kimi qiymətləndirilməlidir. M.Hüseynovun təkliflərini dinləyən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Ağcabədi ərazisində Dövlət Fondu torpaqlarından "Ağdam atçılıq zavodu" üçün 2538 hektar ərazi ayrılması üçün sərəncam vermiş, burada atların yemlənməsi, təlim məşqləri keçirilməsi üçün yüksək səviyyəli kompleks tikdirmiş, nəhayət 2018-ci ildə təsərrüfata "Qarabağ atçılıq zavodu" adı verilmişdir.

Müstəqillik illərinin ilk ağır günlərindən Qarabağ atları Respublikamızda atçılıq idmanına təkan verdi, beynəlxalq atçılıq yarışlarında xalqımızı qələbələrlə təmsil etdilər. Bütün bunlar hamısı yaxşı, təqdirəlayiqdir, lakin Qarabağ atının bütün keyfiyyətlərini üzə çıxarmağa, gələcək nəsillərə təqdim etməyə imkan yaratmır. Eyni zamanda Qarabağ atının tarixi haqqında yazılmış kitablarda, onun xalqımızın qəhrəmanlıq tarixində, mənəviyyatında tutduğu yeri təqdim edə bilmir.

Yuxarıda e.ə. III minilliyin sonu - II minilliyin əvvəli yaranmış "Kitabi-Dədə Qorqud" dastanı atı "əri muradına yetirən" igidin başına iş gələndə "qardaşdan yeg", XVII əsr "Koroğlu" dastanı "At igidin qardaşıdır" - deyir, XIX əsrin sonu - XX əsrin əvvəli "Qaçaq Nəbi" dastanında düşmənin əlinə keçib, Gorusda həbsxanaya salınmış Həcəri qurtarmaq üçün düşmən üzərinə gedərkən Boz atını vəsf edərək deyir:

Boz atım davada pələngdir pələng,
Qızılquş baxışlı, gözləri qəşəng.
Belində qılıncım, çiynimdə tüfəng,
Boz atım, yeri ha, aman günüdü!
Həcərin qalada yaman günüdü!

- deyən qəhrəman birinci atına sığınır, ondan yardımçı olmağa çağırır.

Göründüyü kimi, Azərbaycan türklərinin qəhrəmanlıq tarixində Qarabağ atı Azərbaycan qəhrəmanları ilə bərabər yer tutur, qəhrəmanlıq dastanlarında onun qəhrəmanlıq tarixinin yaradıcısı kimi təqdim olunur.

Qarabağ atının belə igidi darda qoymazlığı XIX əsrin rəsmi tarixi mənbələrində də yer almışdı. Urmiya xanı Fətəli xan Pənah xanın oğlu İbrahimxəlil ağanı özü ilə əsir aparır. İbrahimxəlil ağa Pənah xana yazır: " ... Mənim Qaladakı (Şuşadakı) kürən atımı təcili surətdə mənə göndərin. Bəlkə iti yeriyən və səba yeli tək mənzil kəsən o atın köməyi ilə qaça biləm" (Mirzə Adıgözəl bəy, s.46).

Göründüyü kimi, İbrahimxəlil ağa (sarı) qızılı kürən atının bir süvari ordu içərisindən onu çıxara biləcəyinə inanırdı. Azərbaycanın qəhrəmanlıq dastanlarında, rəsmi sənədlərdə Qarabağ atlarına bu güvənc təsadüfən yaranmamışdı. Qarabağ atı Qarabağ türklərinin ilk inanclarında yer tutmuşdu. Qarabağlıların inancına görə, Qarabağın qızılı kürən atları onlara göydən günəş şüası ilə göndərilmişdir. E. ə. IV minilliyin sonu - III minillikdə 3000 m hündürlükdə Kəlbəcər dağlarındakı qayaüstü at rəsmləri, Naxçıvanın Gəmiqaya at rəsmləri, bu dövrə aid at fiqurları əcdadlarımızın toplum olaraq ilkin təşəkkülü dövründən atın onun məişətinə daxil olub inancında yer tutub müqəddəsləşməsinin göstəricisidir.

***(Davamı 16-cı səhifədə)***

# QARABAĞ ATI

*(Əvvəli 6-cı səhifədə)*

Azərbaycan türklərində papaq, qadın və at müqəddəs, toxunulmazlar idi. Kimsənin papağına, qadınına, atına toxunmaq ölüm də daxil olmaqla cəzaya məhkum edilirdi. Nəsillər arasında barışmaz qan düşmənçiliyinə səbəb olurdu. Hər üç mənəvi dəyər e. ə. IV minilliyin sonu - III minilliyin əvvəlində əcdadlarımızın xalq kimi təşəkkülünün ilkin çağında onun mənəviyyatında yer almış XX əsrin 40-50-ci illərinə qəfər onun dəyərlər sistemində hakim mövqe tutmuşdur. Lənətə gəlmiş rus bolşevikləri, onların yerli əlaltılarının qadağaları, təhqirləri, təbliğatları ilə XX əsrin 40-50-ci illərində məhv edilib, unutduruldu. Bununla da milli geyimin mənəvi funksiyası, milli həyatda qadının ən yüksək milli-mənəvi dəyərlərin ilkin istehsalçısı funksiyası unutduruldu, Qarabağ atının milli-mənəvi həyatda, xüsusən qəhrəmanlıq və vətənpərvərlik tarixində yeri və rolu yaddaşdan silinib, ona adi iş və minik vasitəsi kimi yanaşıldı. Milli-mənəvi həyatımızda bu mənəvi dəyərlərin unudulmasının acı nəticələrini yaşadıq, nə qədər ibrət götürmüşük, bunu gələcək göstərəcək. Bu fakt xalqımızın ilkin təməlində hər hansı assimilyasiyaya uğramadan varlığını davam etdirmənin göstəricisidir.

Bütün Azərbaycan xalqı, qaçqına çevrilmiş qarabağlılar kimi Qarabağ atları da doğulduğu yazlaqlara, yaylaqlara, buz bulaqlara, sərt qayalara, əzəmətli zirvələrə qovuşacaq, 44 günlük müharibənin sevincini yaşayıb, fiziki və psixi cəhətdən özünü bərpa edib gələcək nəsillərin vətənpərvərlik, qəhrəmanlıq tarixinin yaranmasında iştirak edəcək.

**Qarabağ atının tarixi şöhrətini bərpa etdirmək üçün təkliflərim:**

**a)** Azərbaycanda atçılıq sahəsində xüsusi elmi-bioloji-genetik, zootexniki, baytarlıq tədqiqatları aparılmamışdır. Bu sahədə yazılanların hamısı Azərbaycan tarixşünaslığındakı iqtibasçılıq və köçürmələrdir. Qarabağ atçılığının tarixi şöhrətini bərpa etmək üçün bu təsərrüfat dünya elminin son nailiyyətləri əsasında qurulmalıdır. Bunun üçün "Qarabağ atçılıq zavodu" - "Qarabağ Atçılıq Akademiyası"na çevrilməlidir. Akademiyada atçılığın ümumi bioloji, genetika, baytarlıq, zootexniki və b. bölmələri atlar üzərində xüsusi tədqiqatlar aparılmalıdır. Təmiz qanlı Qarabağ atlarının bioloji-genetik əsasları müəyyənləşdirilməlidir. Bu əsasda hazırda "Qarabağ atçılıq zavodu"ndakı xeyli atda olan eksteryer qüsurları və fərqlilikləri aradan qaldırılmalıdır. Atın bütün bioloji genetik keyfiyyətləri dəqiq elmi arayışla təsdiq olunmalıdır;

**b)** Məlum olduğu üzrə hər bir bioloji varlıq təbii-iqlim şəraitinin məhsuludur. Qarabağ atında aparılmış empirik seleksiya üsulu istisna edilərsə, Qarabağ atı Qarabağın iqlimi və təbii-coğrafi şəraitinin məhsuludur. Düzən, səhra şəraitində Axal-Təkə Türkmən, Ərəb at cinsləri onunla yarışa bilsə də, dağ şəraitində Qarabağ atı hır iki cinsə qalib gəlir. Deməli, Qarabağ cinsinin formalaşmasında dağ relyefi və iqlimi üstün təsirə malik olmuşdur. Bunu Qarabağ atlarının davranışı da sübut edir. Qarabağ atları 250 300 m məsafədə çınqıl qayaları çox asanlıqla keçirlər. Hətta üzərində sahibini və yükü də çınqıldan keçirə bilir. Sahibi onu tələsdirməsə, heç bir səhvə, xətaya yol verib özlərini zədələməz. Atlar yeni doğulan 10-15 günlük balalarına daş, çınqıl üzərində yeriməyi öyrədir, təlim edir. At balasını 3-4 metrlik çınqıllıq əraziyə gətirir, özü sal daşların üzəri ilə çınqıldan keçir. Balasından da həmin yerdən keçməyi tələb edir. Qulunlardan eləsi olur ki, anası kimi, daşların üstündən asanlıqla sərbəst keçir. Qulunlar tərslik edib çınqıldan keçməyəndə anası onları sinəsi ilə itələyib çınqıla salır, yavaş-yavaş burnu ilə çınqılın keçiləcək istiqamətinə itələyir, sonda ona sərbəst yeriməyə şərait yaradır, qulun ehtiyatlı addımlarla çınqıldan keçir. Bu üsul nəticə vermədikdə ana madyan ayğırı köməyə çağırır. Ana qulunun boynunun arxasından dişləri ilə tutub, qulunu çınqıla doğru çəkir, ayğır burnu ilə qulunu anaya tərəf itələməklə onu çınqıla salırlar. Bəzən qulunu bütövlükdə çınqıldan bu formada keçirirlər. Bəzən qulunu çınqıla salandan sonra ana madyan və ayğır qulunu hər iki tərəfdən araya alıb, onu irəli aparmaqla çınqıldan keçirirlər. Gecələr Qarabağ atları yeni doğulan balalarını yırtıcılardan qorumaq üçün onları sərt qayaların, çınqılların qoynundakı sığınacaqlarda gizlədirlər. (Kaş müşahidə etdiyim bu səhnələri çəkib, mühafizə etmiş olaydım).Qarabağ atlarının sərt qayalar üzərində belə asan yeriməsi, bu işi balalarına öyrətmələri onların bu keyfiyyətləri vəhşi əcdadlarından aldıqlarını, gen yaddaşında yaşatdıqlarını deməyə əsas verir.

Yuxarıda bəhs etdiyimiz kimi, Qarabağ düzü Ağcabədi rayon ərazisində "Qarabağ atçılıq zavodu"nun qışlaq şəraitinin zəruri tələbatını ödəyəcək ərazi müəyyən edilmiş yüksək keyfiyyətli kompleksi yaradılmışdır. Qarabağın yaylaq və qışlağa köçülməklə, dağ-meşə zonasında və dağlarında yetişdirilən atların dırnaqları möhkəm, Qarabağ deyimində daş-dırnaq, bədəncə möhkəm, sağlam, dözümlü, ən kiçik daşlı dağ cığırında asanlıqla hərəkət edən olmaqla bərabər, ətrafa nəzarət etməkdə, hər hansı təhlükəni hiss etməkdə yüksək həssaslıq olur. Odur ki, Qarabağ atında tarixən qazandığı müsbət keyfiyyətləri bərpa etməsi üçün Qarabağ dağlarında yaylaq otlaqları ayrılmalı, isti yay aylarında atlar dağ otlaqlarına köçürülməlidir. Bu üsul atların təbii bioloji keyfiyyətlərinin bərpasına imkan verməklə bərabər, həm də yemçilikdə az vəsait sərf olunar.

Qarabağ atlarının yetişdirilməsi zamanı yalnız bioloji-instiktiv keyfiyyətlər əsas götürülməmli, zonada bu sahədə yaradılmış empirik biliklər toplanıb safçürük edilməli, onun səmərəli cəhətlərindən istifadə edilməlidir. R.X.Səttarzadə və S.O.Həsənovun 1974-cü ildə nəşr olunmuş "Qarabağ atı" kitabı istisna edilərsə, ikinci bir kitab yazılmamış, Qarabağ atından ayrı-ayrı kitablarda ötəri bəhs olunmuş, onun haqqında müxtəlif ixtisaslı müəlliflərin məqalələri nəşr olunmuşdur. Bu müəlliflərin hamısına hörmətlə yanaşaraq bildirirəm ki, bu əsərlər Qarabağ atını təqdim etmək səviyyəsində deyil. Odur ki, bioloq, genetik, zootexnik və tarixçi etnoqraf müəllif heyətindən ibarət kollektiv tərəfindən Qarabağ atı haqqında mükəmməl kitab yazıb, nəşr edib, dünya xalqlarının dillərinə tərcümə edib yayılması, milli mədəniyyətimizin təbliğində əhəmiyyətli bir iş olardı.

***2022 sentyabr.***